AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT NAZİRLİYİ

BAKI XOREOQRAFİYA AKADEMİYASI

# SƏNƏT AKADEMİYASI

*(beynəlxalq elmi-nəzəri jurnal)*

**№3 (8) 2019**

**Bakı – 2019**

MINISTRY OF CULTURE OF AZERBAIJAN REPUBLIC

**BAKU ACADEMY OF CHOREOGRAPHY**

# ACADEMY OF ARTS

*(international scientific-theoretical journal)*

**№3 (8) 2019**

**Baku – 2019**

МИНИСТЕРСТВО КУЛЬТУРЫ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**БАКИНСКАЯ АКАДЕМИЯ ХОРЕОГРАФИИ**

# АКАДЕМИЯ ИСКУССТВ

*(международный научно-теоретический журнал)*

**№3 (8) 2019**

**Баку – 2019**

**UOT: 7 (091); 7.03**

**EMİL AĞAYEV**
*magistrant*
*Azərbaycan Dövlət Rəssamlıq Akademiyası*
*Emilaghayev93@mail. ru*

# TAHİR SALAHOV YARADICILIĞINDA TARİXİ-ƏDƏBİ OBRAZLAR

***Açar sözlər**: Tahir Salahov, Heydər Əliyev, Koroğlu, tarixi-ədəbi, obraz, rəng*

**XÜLASƏ**

*Məqalədə xalq rəssamı Tahir Salahov yaradıcılığında mühüm yer tutan tarixi-ədəbi obrazlar təhlil edilmiş.*

Hər bir xalqın inkişafı onun mədəniyyət və incəsənətinin zənginliyi ilə əlaqələndirilir. Odur ki, mədəniyyət və incəsənət xadimləri, o cümlədən tarixi və ədəbi şəxsiyyətlərin obrazlarına rəssamlarımız tərəfindən tez-tez müraciət edilir. Öz tablolarında daxili aləmin psixoloji dünyasını böyük ustalıqla əks etdirən sənətkarlarımız, eyni zamanda obrazların bədii həllində monumentallığa üstünlük vermişlər. Belə sənətkarlardan biri də müasir Azərbaycan təsviri sənətinin canlı əfsanəsi sayılan Xalq rəssamı Tahir Salahovdur.

Azərbaycan təsviri sənətində "sərt üslubla" məşhurlaşan rəssam, qısa zaman ərzində öz müasirlərinə yaradıcılıq manerası ilə yüksək təsir göstərmiş və özündən sonra bir neçə görkəmli rəssam yetişdirmişdir. Tahir Salahov yaradıcılığında Qərbi Avropa cərəyanlarından istifadə edərək özünəməxsus olan "mən" obrazını yaratmışdır.

Yaradıcılıq diapazonu geniş olan Tahir Salahov müxtəlif mövzu və janrlarda işləməsinə baxmayaraq, portret janrında kifayət qədər uğurlu əsərlərə imza atmışdır. Onun portret yaradıcılığında tarixi-ədəbi obrazlar (şairlər, bəstəkarlar, siyasi xadimlər, xalq qəhrəmanları və b. ) olduqca mühüm yer tutur. Rəssamın "M. Ə. Sabir", "Qara Qarayev", "Fikrət Əmirov", "Dmitri Şostakoviç", "Koroğlu", "Dədə Qorqud", "Ümummilli lider Heydər Əliyev" və digər bu qəbildən olan portretləri özünün maraqlı bədii həllinə görə xüsusilə seçilir.

1961-1962-ci illərdə kətan üzərində, yağlı boya texnikası ilə yaratdığı "M. Ə. Sabir" adlı portret əsərində dövrünün ab-havasını əks etdirən rəssam satirik şairin düşüncəli obrazını yaratmışdır (şəkil 1). Əsərdə məkan həlli, arxa fonda boz rəngin üzərində verilən ləkələr, simvol olaraq lampanın sönməsi həmin dövrdə baş verən haqsızlıqlara işarədir.



**Şəkil 1.** "Mirzə Ələkbər Sabir"(1962), kətan, yağlı boya

Sənətkarın yaradıcılığında musiqiçi obrazları, Azərbaycan və dünya musiqisinə misilsiz əsərlər bəxş etmiş bir sıra bəstəkarların portretlərinə nəzər yetirək. "Qara Qarayev" (1960) portretində bəstəkar düşüncəli, sanki yeni musiqi bəstələməyə hazırlaşırmış kimi canlandırılmışdır. Kompozisiyada piano qarşısında, işıq-kölgə vasitəsilə obrazın daxili aləmi daha da qabardılmışdır.

"Fikrət Əmirov" portretində ikonoqrafik təhlil metodundan istifadə edərək, əsərdə rəng və məkan həllini vurğulamalıyıq. Öz əlini pianoya qoyaraq, bəstəkar mənalı-lirik baxışlarıyla tamaşaçıya baxır. Əsərdə ekspressionistlərə xas olan rəng çalarlılığı duyulur.

Tahir Salahovun yaradıcılığı həmçinin özündə beynəlmiləl xüsusiyyət daşıyır. Bu mənada onun əsərlərində xarici ölkələrin görkəmli şəxsiyyətlərinin obrazlarının yer almasını xüsusilə qeyd etməliyik. Belə obrazlar arasında məhz öz adını rus musiqi tarixinə qızıl hərflərlə yazan Dmitri Şostakoviçə həsr edilən və bir-birindən maraqlı portret-kompozisiyalar xüsusilə seçilir. Əsərlərdən birində öz sevimli alətinin qarşısında dayanaraq bəstəkar sanki yeni bir əsər bəstələməyə hazırlaşır. Əsərdə milli naxışlar və xarici təsvir metodlarının qarşılıqlı əlaqəsi hiss edilir. Digər bir əsərdə isə yenə eyni formada təsvir edilən Şostakoviç bu dəfə "Sərt üslub"un rənglərinin əhatəsində əks edilmişdir. Fon hissədə yaşıl rəng üzərində bliklər ritmik təkrarlanır. Qırmızı rəng isə daha yumşaq şəkildə həll edilmişdir.

Rəssam digər kompozisiyada bəstəkar Şostakoviçin daha fərqli obrazını yaratmışdır. Əsərdə janrların qarşılıqlı əlaqəsi verilmişdir. Mərkəzdə dayanan obraz daha fərqli şəkildə – profildən təsvir edilmişdir. Məkan həllinin yaratdığı təəssürat tamaşaçının gözü qarşısında canlandırılır. Burada soyuq qış fəslini xarakterizə edən ağ rəngin bütün əsər boyu ritmik təkrarlanmasını xüsusilə qeyd etməliyik.

Xarici ölkələrin tarixi-ədəbi obrazlarından məşhur violonçel ifaçısı M. L. Rostrapoviç, şair Andrey Vaznesenski (2005), dünya üzrə məşhur pop-art rəssamı Robert Rauşenberq kimi tanınmış şəxslərin obrazları da Tahir Salahovun yaradıcılığında mühüm yer tutur.

Azərbaycanın tanınmış şairi "Rəsul Rza" (1971) obrazı rəssam tərəfindən özünəməxsus şəkildə işlənilmişdir. Kompozisiyanın mərkəzində işıq-kölgə vasitəsilə dramaturqun düşüncəli, daxili psixoloji aləmi həyəcanlı şəkildə canlandırılmışdır. Pikassoya xas olan kubizmin işartılarını geyim və qara rəngdə görə bilərik. Məkan həlli, qismən də qızıl bölgü prinsipindən istifadə edilmişdir.

XX əsrdən etibarən Azərbaycan təsviri sənətində ikonoqrafik metoddan istifadə edərək süjet və obrazlar yaradıldı. Azərbaycan ədəbiyyatında mühüm yer tutan Nizami, Nəsimi, Füzuli və başqalarının tabloları yaradıldı. Belə obrazlardan biri də türk xalqlarının folklor yaradıcılığında mühüm yer tutan Koroğluya həsr edilmiş təsviri sənət nümunələridir. Tağı Tağıyevin ilk yaratdığı ikonoqrafik portretin davamı olaraq Qəzənfər Xalıqov, Tokay Məmmədov, Altay Hacıyev bir-birindən maraqlı sənət əsərləri yaratdılar. Koroğlu obrazına müraciət edən sənətkarlardan biri də məhz Tahir Salahovdur.

Tahir Salahovun Koroğluya həsr edilmiş kompozisiyasında iri formada təsvir edilən mifik obraz profildən təsvir edilmişdir. Rəssam Koroğlu obrazının bədii həllində "Sərt üslub"a xas olan cizgilərdən istifadə etmişdir (Şəkil 2). Obrazın geyimi, üzündəki ifadə, əl barmaqlarının dinamikliyi canlı şəkildə ifadə olunmuşdur. Simvolik olaraq qəhrəmanın qılıncı da əks edilmişdir. Bir-birinə uyğunlaşan rəng qamması, qılıncın üzərindəki blik və ləkələr əsərdə işıq-kölgə təəssüratını oyadır. Rəssam arxa fonda Avropa rəssamlıq məktəbinin metodlarından istifadə edərək mənzərə ilə əlaqə yaratmışdır. Əsərdə xüsusi olaraq soyuq və isti rənglərin ahəngini, xətti perspektivanı aydın görə bilərik. Koroğlunun geyimi kompozisiyanı 3 hissəli əsər kimi tamaşaçının gözü qarşısında canlandırır. Bir hissədə Çənlibel dəlilərinin sadə xalqa kənd təsərrüfatında kömək etməsi, digər hissədə isə qotik üsluba xarakterik nizələrin əks edilməsiylə sanki ləkələri xatırladan döyüş səhnələri

əks edilmişdir. Tahir Salahov tabloda məkan həllini də yüksək ustalıqla həll etmişdir. Qeyd edək ki, Tahir Salahov həmçinin dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Koroğlu” operasının səhnə dekorasiyalarının da müəllifidir.



**Şəkil 2**. “Koroğlu”, kətan, yağlı boya

2000-ci ildə “Dədə Qorqud” obrazına həsr edilmiş təsviri sənət müsabiqəsinə təqdim edilən maraqlı əsərlərdən birinin müəllifi Tahir Salahov idi. Mərkəzdə müdrik qocanın geyimi üzərindəki türk naxışları diqqəti cəlb edir. Onun əlindəki aləti, dinamika və jesti xüsusilə qeyd etməliyik. Arxa fonda Çənlibelin mənzərəsi, sanki rəngli kağız parçalarından istifadə etməklə kollaj texnikasının yaratdığı mavi səma təsvir edilmişdir.

Tahir Salahov yaradıcılığında Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin portretləri də mühüm yer tutur (Şəkil 3-4). Bu əsərlərdən biri 1984-cü ildə kətan üzərində yağlı boya texnikasıyla yaradılmışdır. Kompozisiyanın mərkəzində öz xalqının gələcəyini fikirləşən monumental şəkildə həll edilmiş tarixi obraz gözümüzün önündə canlandırılmışdır. Əsər boyu soyuq və isti rənglərin ritmik təkrarlanması xüsusilə vurğulanmalıdır. Arxa fonda Kreml və keçmiş SSRİ Duması təsvir edilməklə, rəssam həmçinin veduta janrının xüsusiyyətlərini də verməyə çalışmışdır.

Digər bir əsərdə rəssam Ümummilli liderin obrazını interyerdə, öz iş otağında təsvir etmişdir. Portretdə soyuq və isti rənglərin uyğunlaşması, məkan həlli, daxili psixoloji aləm əks edilmişdir. Arxa fonda Bakının şəhər mənzərəsi canlandırılmışdır.





**Şəkil 3 və 4.** Tahir Salahov yaradıcılığında “Heydər Əliyev” obrazı, kətan, yağlı boya

Xalq rəssamı Tahir Salahov yaradıcılığında tarixi-ədəbi obrazlar mövzusunu yekunlaşdıraraq əsas nəticələri aşağıdakı qısa ümumiləşdirmələr formasında belə ifadə etmək mümkündür:

-Rəssamın yaradıcılığında tarixi-ədəbi obrazlar silsiləsi özünəməxsus şəkildə işlənilmişdir;

- Rəssam əksər tablolarında süjeti birxətli müstəvidə qurmaqla əsas diqqəti obrazın daxili aləminə yönəltmişdir;

- Rəssam portretlərində məkan həllini və rəng uyğunluğunu ustalıqla həll etmişdir.

Tahir Salahov Müasir Azərbaycan təsviri sənətinin canlı əfsanəsi olmaqla bərabər, həm də böyük məktəbdir. Onun yaradıcılığında mühüm yer tutan tarixi-ədəbi obrazlar “Sərt üslub”, Qərbi Avropa və milli ənənələrinin sintezi şəklində təsvir edilərək bu gündə tamaşaçıların diqqətini cəlb edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Ağayev E. “Tahir Salahov yaradıcılığında “Koroğlu” obrazı”// Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş “Heydər Əliyev və Müasir Azərbaycan təhsili” adlı respublika tələbə elmi konfransı məruzələrinin tezisləri. S. 136-137, 19 aprel 2019, Dillər Universiteti
2. Əliyev Z. “Sabir təsviri sənətdə”. Bakı, Təhsil, 2012, s .166
3. Nəcəfov M.  Tahir Salahov (monoqrafiya). Bakı, 1980

**ЕМИЛЬ АГАЕВ**

## ИСТОРИЧЕСКАЯ ЛИТЕРАТУРА В СОЗДАНИИ ТАИРА САЛАХОВА

***Ключевые слова:*** *Таир Салахов, Гейдар Алиев, Кероглу, историко литературный, образ, цвет.*

## РЕЗЮМЕ

В данной статье анализируются исторические и литературные образы, играющие важную роль в творчестве народного художника Таира Салахова.

**EMIL AGAYEV**

## HISTORICAL-LITERATURE IN CREATION OF TAHIR SALAHOV

***Keywords:*** *Tahir Salahov, Heydar Aliyev, Koroglu, historical-literary, image, color.*

## SUMMARY

This paper analyzes the historical and literary images that play an important role in the work of folk artist Tahir Salahov.